# Qarabağın bərpası ilə Azərbaycanın qüdrəti, təsir imkanları daha da artacaq

*Müharibənin ilk günündən mənəvi üstünlük bizdə idi...Təkcə ona görə yox ki, biz haqlı idik. Biz mənəvi üstünlüyü ona görə əldə etdik ki, bütün bu illər ərzində bir amalla yaşamışıq: ərazi bütövlüyümüzün bərpa edilməsi, düşmənlərin torpaqlarımızdan qovulması.*

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**



***Yeni Azərbaycan Partiyasının (YAP) martın 5-də keçirilən VII qurultayında Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev videoformatdakı nitqində bir sıra məsələlərlə bərabər, Vətən müharibəsində parlaq Qələbənin qazanılması ilə Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etdiyini xüsusi vurğuladı.***

Eyni zamanda, bu uğurlu nəticə ilə bölgədə yeni reallıqların, yeni əməkdaşlıq imkanlarının yarandığını bildirdi: "Bu gün müharibədən sonra yeni dövr başlayır. Əvvəlki dövrlərdə əldə edilmiş bütün uğurları biz kənara qoymalıyıq. Bəli, bu, bizim üçün fundament yaratdı, baza yaratdı, imkan yaratdı ki, biz əsas məqsədimizə çataq. Ancaq əgər biz oturub bütün günü o dövr haqqında danışsaq, gələcək haqqında düşünməsək, onda nə olacaq? Biz gələcək haqqında düşünməliyik. Biz zamanı qabaqlamalıyıq. Mən demişəm, indi Qarabağın bərpası ilə bağlı bizim əsas rəqibimiz zamandır.

*(ardı 6-cı səhifədə)*

# Qarabağın bərpası ilə Azərbaycanın qüdrəti, təsir imkanları daha da artacaq

*(əvvəli 1-ci səhifədə)*

Ölkənin gələcəyini elə planlaşdırmalıyıq ki, uzunmüddətli dayanıqlı inkişaf təmin edilsin, müstəqillik əbədi olsun, ölkəmizin qüdrəti artsın, təsir imkanlarımız artsın və daim Azərbaycan xalqı təhlükəsizlik şəraitində öz dədə-baba torpağında yaşasın".

Yeri gəlmişkən, Prezident İlham Əliyevin 2 fevral 2021-ci il tarixli sərəncamı ilə təsdiq edilən "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də də bununla bağlı bir sıra əhəmiyyətli məqamlar yer alıb. Strategiyada işğaldan azad edilən ərazilərin ölkənin ümumi iqtisadiyyatına reinteqrasiyasının, eyni zamanda, yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizlərinin imkanlarından faydalanılması hesabına Azərbaycanın inkişafının sürətlənəcəyi vurğulanıb. Bununla da regionda təhlükəsizliyin, sabitliyin, rifahın və qarşılıqlı faydalı əməkdaşlığın formalaşacağı, eləcə də Cənubi Qafqazın lider dövləti olan Azərbaycanın region iqtisadiyyatının ümumi arxitekturasının müəyyənləşməsində rolunun daha da möhkəmlənəcəyi diqqətə çatdırılıb.

Milli Prioritetlərdə Qarabağın dirçəlişinin reallaşdırılması ilə bağlı qeyd edilib ki, əvvəlki dövrlərdə olduğu kimi, işğaldan azad edilən ərazilərə qayıdan insanların təhlükəsiz yaşayışı təmin edilməli, bu region ölkənin ən abad guşələrindən birinə çevrilməlidir. Müasir həyatın əsası olan layiqli yaşayışın bərpası üçün bütün sahələrdə quruculuğa nail olunmalıdır. Bu, stimullar əsasında və dövlət-özəl tərəfdaşlığının inkişafı çərçivəsində həyata keçirilməlidir. Yalnız belə şəraitdə işğaldan azad olunan ərazilərin Azərbaycanın böyük gələcəyinə tam inteqrasiyasını gerçəkləşdirmək mümkündür.

Burada bir məqamı da xatırlatmaq istərdik. Belə ki, Prezident İlham Əliyev YAP-ın qurultayındakı yekun nitqində bildirdi ki, Böyük Qayıdış proqramının icrası müəyyən zaman kəsiyində baş verəcək: "Biz bir gündə, yaxud da ki, bir il, ya iki ildə dağılmış bütün şəhər və kəndlərimizi bərpa edə bilmərik. Ona görə burada ardıcıllıq, əlbəttə ki, gözləniləcək. Bu ardıcıllıqla bağlı, əlbəttə, hesab edirəm ki, ilk növbədə, ən ağır vəziyyətdə yaşayan məcburi köçkünlərə üstünlük verilməlidir. Çünki 300 mindən çox məcburi köçkün dövlət tərəfindən evlərlə, mənzillərlə təmin edilib, onların məişət şəraiti yaxşıdır. Ancaq hələ də uşaq bağçalarında, yataqxanalarda və digər yararsız, yeni uyğunlaşdırılmış binalarda köçkünlər yaşayır və burada da sosial ədalətin gözlənilməsi üçün Yeni Azərbaycan Partiyasının fəalları öz rolunu oynamalıdırlar".





Böyük Qayıdışın tezliklə başlanılması üçün dövlətimizin başçısının vurğuladığı kimi, bu istiqamətdə tədbirlər, əlbəttə, ardıcıllıqla həyata keçiriləcək. Təbii ki, bu məsələdə, ilk növbədə, minalanma prosesinin sürətlə aparılması mühüm önəm daşıyır. Çünki düşmən torpaqlarımızı minalamaqla yanaşı, yaşayış sahələrini xarabalığa çevirib. Prezident İlham Əliyev bu günlərdə yerli və xarici media nümayəndələri ilə keçirdiyi mətbuat konfransında jurnalistin müvafiq sualına cavabında da ərazilərin minalardan təmizlənmə prosesinə mühüm önəm verildiyini bildirdi: "Məskunlaşma üçün, ilk növbədə, ərazilərin minalardan təmizlənməsi başa çatdırılmalıdır. Digər tərəfdən, işğal zamanı düşmən burada hər şey, bütün infrastruktur tamamilə dağıdılıb, şəhərlər yoxdur, qayıdası yer yoxdur…".

Bəli, erməni barbarları 30 il ərzində torpaqlarımızı işğal altında saxlamaqla, istismar etməklə, təbii resurslarımızı oğurlamaqla, kəndlərimizi, şəhərlərimizi dağıtmaqla bərabər, həm də əraziləri minalayıblar. Bu, düşmənin vəhşiliyindən, faşist xislətindən xəbər verir. Ona görə də müharibədən sonra azad edilən torpaqlarda təəssüf ki, tez-tez bədbəxt hadisələr baş verir. Bu, əsasən mənfur düşmənin işğaldan sonra bütün yaşayış sahələrinin, infrastrukturun, təmas xəttinə yaxın olan ərazilərin, yolların, önəmli strateji yüksəkliklərin minalanması ilə əlaqədardır. İşğalçının müharibədən sonra bu cür təhlükəli zonaların xəritəsini verməkdən belə imtina etməsi isə onun qəddarlığının bariz ifadəsidir.

İşğaldan azad edilən ərazilərin minalardan təmizlənməsi prosesi başa çatandan sonra kritik yol xətlərinin bərpasına başlanacaq. Bu, yaşayış sahələri arası gediş-gəlişi və digər vacib təminatların təchiz olunmasını asanlaşdıracaq. İçməli su, sanitariya və irriqasiya sistemlərinin yenidən qurulması prosesi isə insanların həyat səviyyəsinin yaxşılaşmasına və sonrakı mərhələdə iqtisadi baxımdan ailə-ev təsərrüfatlarının canlanmasına töhfə verəcək.

Bərpa ilə əlaqədar kompleks yanaşmanı təmin etmək üçün dörd mərhələdə fəaliyyətin reallaşdırılması nəzərdə tutulur. Bu, ilkin mərhələdə idarəetmə və təhlükəsizliyi, infrastruktur məsələlərinin həllini, növbəti mərhələlərdə isə sosial xidmətlərin fəaliyyətini, iqtisadiyyatın yenidən qurulması və inkişafını özündə ehtiva edir.

Azərbaycan Prezidentinin tapşırığına uyğun olaraq, hər bir bölgənin təbii ehtiyatları, ənənəvi iqtisadiyyat sahələri, nəqliyyat qovşaqları nəzərə alınaraq, müvafiq iqtisadi rayonun profili, ixtisaslaşması nəzərdə tutulub. Həmçinin bu işlərin görülməsi zamanı dövlət vəsaitlərinə qənaət edilməsi və investisiyaların səmərəliliyinin artırılması məqsədilə ayrı-ayrı sahələr üzrə dövlət-özəl sektor tərəfdaşlığından geniş istifadə edilməsi, xüsusi güzəştli iqtisadi rejimin tətbiqi nəzərdə tutulur.

Erməni vandalları tərəfindən Qarabağın ekologiyasına, su təsərrüfatına, meliorasiya sisteminə ağır zərbə vurulub. Suqovuşan hidroqovşağı və oradan su götürən Tərtərçay magistral kanalları yararsız hala salınıb. Bununla bağlı bərpa-quruculuq işlərinin aparılması üçün Tədbirlər Proqramı hazırlanaraq, artıq hökumətə təqdim edilib.

Proqramın əsas məqsədi uzun illər erməni təcavüzünə məruz qalan suvarılan torpaqların kənd təsərrüfatında istifadəsinə şərait yaratmaqdır. Sonrakı mərhələdə isə bu obyektlərin müasir səviyyədə yenidən qurulması və inkişafına nail olmaqdır.

Hazırda işğaldan azad edilən ərazilərdə sektorlar üzrə investisiya qoyuluşu, həmçinin investorların cəlb edilməsi ilə bağlı məsələlər araşdırılır. Şuşa və bir neçə yaşayış məntəqəsi istisna olmaqla qalan bütün ərazilərin həm sosial şərtləri, həm də iqtisadiyyatının sıfırdan qurulması nəzərdə tutulur. Şübhəsiz ki, belə bir prosesin həmin ərazilərin reabilitasiyasından sonra həyata keçirilməsi məqsədəuyğun sayılır.

Ermənistanın hərbi təcavüzündən azad olunan 1,7 milyon hektar Azərbaycan ərazisinin əksər hissəsi müxtəlif növ kənd təsərrüfatı məhsullarının becərilməsi üçün yararlıdır. Həmin məhsulların emalı yeyinti sənayesində yeni güclərin yaranmasına, etibarlı təchizat bazasının formalaşdırılmasına imkan verəcəkdir. Ona görə də təbii ehtiyatlara əsaslanan sənaye müəssisələrinin qurulması, aqrar potensial nəzərə alınmaqla, iri emal sənayesi komplekslərinin yaradılması bu yaşayış məntəqələrinə qayıdan sakinlərin sosial şəraitinə, həyat tərzinə əsaslı təsir göstərəcək. Təbii ki, bu prosesdə dövlətlə bərabər, özəl sektor da fəal iştirak edəcək. Xüsusilə xarici investorların cəlbi istiqamətində müəyyən imtiyazlar müəyyənləşdiriləcək, vergi-gömrük sistemində müvafiq güzəştlərin tətbiqinə önəm veriləcək. Bir sözlə, gerçəkləşdiriləcək strateji proqramda iqtisadi islahatlardan, mülkiyyət toxunulmazlığına zəmanətdən tutmuş məhkəmə münaqişələrinin ədalətli həllinə qədər bütün məsələlər öz ifadəsini tapacaq.

Beləliklə, Azərbaycan Prezidentinin rəhbərliyi ilə işğaldan azad edilən Qarabağ torpaqları iqtisadiyyatımızın daha sürətli inkişafı üçün yaxın gələcəkdə yeni potensial imkanları genişləndirəcək, Azərbaycanın iqtisadi göstəricilərinə görə regionun lideri mövqeyini möhkəmləndirəcək.

Göründüyü kimi, Böyük Qayıdış proqramının icrasında insanların Qarabağa mərhələli şəkildə köçürülməsi zəruri prosesdir. Belə halda təhsil, səhiyyə və telekommunikasiya obyektlərinin koordinasiyalı bərpası əhalinin adaptasiyasını sürətləndirir. Paralel şəkildə əhalinin məşğulluğunun artırılması məqsədilə kiçik və orta bizneslərin dəstəklənməsi, bilavasitə ev təsərrüfatlarının inkişafına səbəb olacaq təşəbbüslərin artırılması məqsədəuyğun sayılır. Bundan əlavə, iqtisadi canlanmaya töhfə verəcək bank və turizm sektorlarına da xüsusi diqqət göstərilməsi mühüm önəm daşıyır.

Dövlətimizin başçısı YAP-ın VII qurultayında müharibənin nəticələrindən danışarkən, hazırda müzakirə mövzusu olan Zəngəzur dəhlizi məsələsinə də toxunub: "Zəngəzur dəhlizi tarixi nailiyyətdir. Üçtərəfli Bəyanatda xüsusilə bu məsələnin əks olunması bizim, eyni zamanda, böyük siyasi qələbəmizdir. Hazırda Zəngəzur dəhlizinin fəaliyyəti istiqamətində fəal işlər aparılır, bir çox təkliflər var, artıq bir çox nəqliyyat-kommunikasiya layihələri masa üzərindədir, müzakirə edilir və bu, bizim növbəti tarixi uğurumuz olacaqdır".

Prezident İlham Əliyev yerli və xarici media nümayəndələri ilə keçirdiyi mətbuat konfransında da keçən il 10 noyabr tarixli Bəyanatın bir bəndinin Ermənistan ərazisində Azərbaycanı onun Naxçıvan Muxtar Respublikası, həmçinin Azərbaycanı Türkiyə və eyni zamanda, Rusiyanı Türkiyə ilə birləşdirən dəhliz açılması barədə olduğunu bildirib.

Xatırladaq ki, bir müddət bundan əvvəl Prezident İlham Əliyev tərəfindən Füzuli rayonunda Horadiz–Ağbənd dəmir yolu xəttinin təməlinin qoyulması da bu baxımdan mühüm əhəmiyyətə malik hadisədir. Bu dəmir yolu xətti nəinki bölgənin, həm də bütün regionun gələcək inkişafı üçün strateji əhəmiyyət daşıyır.

Ümumi uzunluğu 100 kilometr olan bu nəqliyyat infrastrukturu Azərbaycan vətəndaşlarının azad edilmiş torpaqlara rahat gediş-gəlişinin təminatında əhəmiyyətli rol oynayacaq. Ən önəmli cəhət isə odur ki, adı çəkilən infrastruktur Türkiyəyə qədər uzanmaqla Bakı–Tbilisi–Ceyhandan sonra Azərbaycanı qardaş ölkə ilə birləşdirən ikinci dəmir yolu şəbəkəsi olacaq. Həmçinin Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında birbaşa əlaqənin yaranmasına böyük töhfə verəcək.

Bununla da Azərbaycan təhlükəsiz tranzit ölkə kimi növbəti mərhələyə daxil olur. Eyni zamanda, bu infrastruktur bütün türk dünyasını birləşdirməklə yaxın gələcəkdə regionun türkdilli dövlətləri arasında dərin iqtisadi-siyasi birliyin qurulmasını şərtləndirir. Beləliklə, sözügedən layihənin reallaşması ilə Azərbaycanın regionda strateji əhəmiyyəti artır, o cümlədən iqtisadi potensialı daha da güclənir.

Dövlətimizin başçısı YAP-ın VII qurultayında Zəngəzur dəhlizi ilə bağlı bir məqamı da diqqətə çatdırıb: "İndi Ermənistan Zəngəzur dəhlizinin icrasına əngəl törətmək istəyir. Amma nail ola bilməyəcək. Məcbur edəcəyik onları, məcbur edəcəyik. Necə ki, qovmuşuq torpaqlarımızdan, bütün istədiyimizə nail olacağıq…".

Hazırda Qarabağda "ağıllı kənd" layihəsinə start verilib. Füzulidə bütün növ təyyarələri qəbul edə biləcək beynəlxalq aeroportun tikintisinə başlanılıb. Təyyarə limanının inşasının aparılması ilə bərabər, Şuşa şəhərinə iki avtomobil yolunun da çəkilməsi işğaldan azad edilən ərazilərimizə qayıdan soydaşlarımızın sosial şəraitinin maksimum yaxşılaşmasına, regionun inkişafına müsbət təsir göstərəcək.

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***